*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 63-67* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.63*

# Çağdaş uşaq ədəbiyyatında Sevinc Nuruqızı yaradıcılığının mövqeyi

**Gülnar Qəmbərova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: ms.gulnar_babayeva@mail.ru

**Annotasiya.** Sevinc Nuruqızı son otuz ildə bir-birindən maraqlı əsərləri ilə uşaqların diqqətini çəkməyə müvəffəq olmuşdur. Əsərləri daim xarici ölkələrin müsabiqələrinin qalibi olmuş, istər ölkə daxilində, istərsə də ölkə hüdudlarında uşaq ədəbiyyatını layiqincə təmsil etməyi bacarmışdır. Ömrünü uşaq ədəbiyyatının inkişafına və düzgün məcrada irəliləyişinə həsr edən, bu sahədə ədəbi prosesdə fəal iştirak edən Sevinc Nuruqızı ölkənin ictimai-siyasi həyatında baş verən hər bir tarixi hadisəyə həssaslıqla yanaşıb. Xüsusilə, Qarabağ, Şuşa nisgili ilə bağlı istər son otuz ildə – işğal dönəmində, istərsə də zəfər illərində yazdığı mətnlər onun çağdaş yazar obrazını ədəbiyyatımıza qazandırıb. Məqalədə müəllifin müxtəlif dövrlərdə uşaqlar üçün qələmə aldığı əsərlər təhlil predmetinə çevrilib.
**Açar sözlər:** Sevinc Nuruqızı, uşaq, vətənpərvərlik, ədəbiyyat, çağdaş

**Məqalə tarixçəsi:** göndərilib – 02.09.2024; qəbul edilib – 20.09.2024

# The position of Sevinj Nurugizi's creativity in contemporary children's literature

**Gulnar Gambarova**
Doctor of Philosophy in Philology, Associate Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: ms.gulnar_babayeva@mail.ru

**Abstract**. In the last thirty years, Sevinj Nurugizi has managed to attract the attention of children with his interesting works. His works have always won competitions in foreign countries, and he has managed to properly represent children's literature both inside and outside the country. Sevinj Nurugizi, who devoted his life to the development of children's literature and its progress in the right direction, actively participated in the literary process in this field, was sensitive to every historical event in the social and political life of the country. In particular, the texts he wrote about the Karabakh and Shusha relations, whether in the last thirty years – during the occupation period, or during the years of victory – earned him the image of a modern writer in our literature. In the article, the works written by the author for children in different periods become the subject of analysis.
**Keywords:** Sevinj Nurugizi, child, patriotism, literature, contemporary

**Article history:** received – 02.09.2024; accepted − 20.09.2024

## Giriş / *Introduction*

Çağdaş dövrdə Azərbaycan uşaq ədəbiyyatının parlaq imzalarından biri də Sevinc Nuruqızıdır. Sevinc Nuruqızı müstəqillik dövrü uşaq ədəbiyyatının canlanmasında, onun yeni məzmun və ideya dolğunluğu qazanmasında bir-birindən maraqlı mətnləri ilə çıxış etmişdir. Onun şeirlərinə nəzər yetirəndə Vətən, Ana dili, bayraq, yurd sevgisi, təbiəti mühafizə və məktəbə çağırış kimi rəngarəng mövzuların funksional olduğunu görürük.

## Əsas hissə / *Main Part*

Sevinc Nuruqızının "Ana dili" şeirində uşaqlara Ana dilimizə olan sevgi, hörmət aşılanır, bu dilin qorunmasının vacibliyi vurğulanır:

*Mən dilimi əsrlərin sınağından qorumuşam,*
*Mən dilimi yad ellərin qınağından qorumuşam.*
*Qarabağım bu dilimlə əzizlənib,*
*Qara bağrım bu dilimlə təmizlənib.*
*Mən dilimi yad gözlərdən qorumuşam,*
*Mən dilimi yad sözlərdən qorumuşam.*

Uşaq şəxsiyyətinin formalaşmasında vətənpərvərlik tərbiyəsi mühüm yer tutur. Vətənpərvərlik əxlaq tərbiyəsinin tərkib hissələrindən biri olmaqla ən yüksək insani hissdir. Vətənpərvərlik hər şeydən əvvəl vətəni dərin məhəbbətlə sevməyi, onun uğurları ilə qürur duymağı, müstəqillik dəyərlərini qorumağı nəzərdə tutur. Bu hiss insanı ömrü boyu müşayiət edir, ucaldır. Sevinc Nuruqızı "Vətən" şeirində vətənə qarşı sevgini, bağlılığı izhar etməklə yanaşı, sülhü, əmin-amanlığı təbliğ edir:

*Hər vətənin oğlu var,*
*Qızı var neçə-neçə.*
*Heç bir torpaq istəməz*
*Qoynundan yağı keçə.*

*İstəməz səmasından*
*Mərmilər yol eləyə.*
*Keçdiyi hər cığırda*
*Dəhşəti bol eləyə.*

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən 2019-cu ilin aprel ayında elan olunan "Birpərdəli pyeslər" müsabiqəsinin qaliblərindən biri Sevinc Nuruqızıdır. Yazıçının "Al çobanyastığı ləçəkləri" pyesi III yerə layiq görülmüşdür. Pyes Qarabağ həqiqətlərini özündə əks etdirən birpərdəli əsərdir. Həmçinin Türkiyədə keçirilən "İlesam-Akdağ-9" İlesam-Akdağ Uşaq ədəbiyyatı roman, hekayə və nağıl – 2018 (Kitab dosyası) müsabiqəsinin yekunlarına görə, 15 aprel 2019-cu il tarixində birinci yeri Sevinc Nuruqızının "Melissa" (İmdat Avşarın tərcüməsində) əsəri qazanmışdır. Əsər haqqında tanınmış tənqidçi Elnarə Akimova yazır: *"Əsərin əsas məqsədi Melissanın – qəhrəmanın çətin, mürəkkəb situasiyadakı reaksiyasını, davranışını göstərməkdir. Və bu durumda məkan və zaman amili artıq arxa plana keçir, qəhrəmanın əhvalatı fonunda əhəmiyyətsizləşir. Modernist təhkiyə modelinə uyğun olaraq əsərdə qəhrəmanların daxili dünyası ön plana çıxır. Bəlkə də, qəhrəmanın kukla – cansız personaj olaraq seçilməsi nahaq deyil. Yazıçı tiplər sərgisi yaradır və bu sərgidə Melisa susqun tamaşaçıdır*" [1, s.10].

Sevinc Nuruqızı kiçikyaşlı uşaqlar üçün müxtəlif şəkilli kitabçalar da hazırlamışdır. Ayrı-ayrı hərflərin öyrənilməsi məqsədilə nəzərdə tutulmuş bu kitabçalarda hər hərfə uyğun yazılar dərc olunmuşdur. Məsələn, "B" hərfini öyrənək" adlı kitabında "B" hərfini uşaqlara öyrətmək məqsədilə şair həm bu hərfin üstünlük təşkil etdiyi hekayələrə, şeirlərə yer verir ( "Bayrağa bax", "Balaca balıq və böyük balina"), həm də uşaqlarda məntiqi təfəkkürün inkişaf etdirilməsini təmin edən, onların dil qabiliyyətini formalaşdıran tapmaca və yanıltmaclara burada rast gəlmək mümkündür. Fikrimizcə, bu kitabçaların nəşri kiçikyaşlı uşaqların məktəbə hazırlıq dövründə hərflərin mənimsənilməsində yaxın köməkçi ola bilər.

"Bahar qız əfsanəsi" adlı libretto müəllifi olan Sevinc Nuruqızı bu əsərində Yer hökmdarının qızı Baharla Göy hökmdarının oğlu Göygünün əfsanəvi məhəbbəti haqqında danışır. Əsər baharın göylərə çəkilməsi, hər ilin üç ayı yerə enib Yurdu dolaşması, ayağı dəyən qapqara torpağın canlanması, əbədi qarlar və buzlar diyarı olan torpaqlarda həyat əlamətlərinin yaranması haqqında nağılvarı süjet xəttinə malikdir. Operada hadisələr milli adət və ənənələrimiz fonunda cərəyan edir. Yer hökmdarı anasının vəfatından sonra günlərlə ağlayan qızı Baharı bu kədərdən xilas etmək üçün onu ərə vermək qərarına gəlir. Bahar atasının sözündən çıxmır. Razılaşır. Carçı bütün Yurda elan edir ki, hökmdar qızına layiq olmaq istəyənlər qol, beyin yarışmasına qatılmalıdır. Yurdun hər yerindən gözəl Baharla izdivac qurmaq istəyən gənclər gəlir. Göy hökmdarının oğlu Göygün də illərdir səmalardan baxıb Bahara gizli eşq bəsləyir. O da Bahar uğrunda mübarizəyə qoşulur. Və nəticə onun xeyrinə olur. Yer hökmdarı qızı Baharı Göy hökmdarının oğlu Göygünə ve-

rir. Bununla da, Yerlə Göy arasında uzun illərdir bitməyən savaş dayanır. Yer əbədi buzlardan azad olur. Bahar kədərdən qurtulur. Və hər il üç ay səmalardan doğma yurda enir, yer üzünü yaşıllıqlara qərq edir.

Uşaqların mənəvi dünyasının, xəyal aləminin zənginləşməsinə səbəb ola biləcək əsərlər arasında Sevinc Nuruqızının "Meşədə yeni il" [5] hekayəsini də göstərmək olar. Burada yeni ildə uşaqların bəzədiyi küknar ağacının meşədə qar dənələri, meşə heyvanları tərəfindən bəzədilməsindən bəhs olunur. Yazıçı Balaca Küknarın qar dənələri ilə ilk tanışlığını çox dolğun, canlı təsvir edir.

Sevinc Nuruqızı kiçikyaşlı uşaqlar üçün müxtəlif şəkilli kitabçalar da hazırlamışdır. Ayrı-ayrı hərflərin öyrənilməsi məqsədilə nəzərdə tutulmuş bu kitabçalarda hər hərfə uyğun yazılar dərc olunmuşdur. Məsələn, "B" hərfini öyrənək" adlı kitabında "B" hərfini uşaqlara öyrətmək məqsədilə şair həm bu hərfin üstünlük təşkil etdiyi hekayələrə, şeirlərə yer verir ("Bayrağa bax", "Balaca balıq və böyük balina"), həm də uşaqlarda məntiqi təfəkkürün inkişaf etdirilməsini təmin edən, onların dil qabiliyyətini formalaşdıran tapmaca və yanıltmaclara burada rast gəlmək mümkündür. Fikrimizcə, bu kitabçaların nəşri kiçikyaşlı uşaqların məktəbə hazırlıq dövründə hərflərin mənimsənilməsində yaxın köməkçi ola bilər.

Ömrünü uşaq ədəbiyyatının inkişafına və düzgün məcrada irəliləyişinə həsr edən, bu sahədə ədəbi prosesdə fəal iştirak edən Sevinc Nuruqızı ölkənin ictimai-siyasi həyatında baş verən hər bir tarixi hadisəyə həssaslıqla yanaşıb. Xüsusilə, Qarabağ, Şuşa nisgili ilə bağlı istər son otuz ildə – işğal dönəmində, istərsə də zəfər illərində yazdığı mətnlər onun çağdaş yazar obrazını ədəbiyyatımıza qazandırıb.

Sevinc Nuruqızının Qələbə təntənəsinə həsr olunmuş "Zəfər Nəğməsi – Şuşa" kitabında qələbəni əks etdirən əsərlər yer alıb. Bu kitabda toplanmış 22 əsərdə Birinci və İkinci Qarabağ müharibələrinin döyüş ruhu, valideyn ağrıları təsvir edilir, döyüşçünün qəlbindəki sirlər açılır. Eyni zamanda, müharibənin ağır yükünü daşıyan zərif ürəkdən süzülmüş həssas notlar xanım yazıçının sərgilədiyi mübarizə əzminin, qələbə ruhunun ölməzliyinin göstəricisinə çevrilir.

Sevinc Nuruqızının yaradıcılığında əsas mövzulardan biri milli vətənpərvərlikdir. "Zəfər nəğməsi – Şuşa" (2022) kitabında o, döyüş mövzusunda yazdığı əsərlərə yer verib. Birinci və İkinci Qarabağ döyüşlərinin hadisələrini bədiiləşdirən əsərlər müharibənin ağrı və iztirablarını, şəhidliyə qovuşmuş oğulların şücaətini, onların həyat tərzini əks etdirir.

Əsər müəllifin oxucuya müraciəti ilə başlayır: "Superqəhrəmanları sevdiyini yaxşı bilirəm. Onlara bənzəmək istədiyini də. Onların super gücü real deyil. Onlar möcüzələrlə dolu nağıl dünyasının qəhrəmanlarıdır. Amma bu əsər real superqəhrəmanlar haqqındadır. Bu ən yeni bir zəfər döyüşü haqqında super əhvalatdır. Müasir, real, inanılmaz, coşqulu və sevgi dolu. Nəfəs qədər yaxın tariximizin qəhrəmanlıq dastanı... Əsəri diqqətlə oxu, incələ, sonra təəssüratlarını bölüş. Dostlarınla müzakirə et. Hansına bənzəmək istədin, hansının qəhrəmanlığı səni heyrətə gətirdi? Hansının şücaətini təkrarlamaq keçdi qəlbindən?! Sənin əfsanəvi superqəhrəmanların bu əsərdəki igidlərin etdiklərini edə bilərmi?! Qarşına o qədər sual çıxacaq ki. Qəlbin elə böyük qürur hissi ilə dolacaq ki.." [4, s.12]

Əsərdə müharibə zamanı canını fəda etmiş bir çox qəhrəmanların başına gələn hadisələr müəllif tərəfindən müfəssəl, real şəkildə qələmə alınır: Məmmədov Kərəm, Həsənov Əfqan, Hüseynli Nurlan, Səmədli Elmar, Kərimli Ədalət, İsmayılov Rasim, Cabbarlı Kənan və başqalarının Şuşanın alınması zamanı yaşadıqları sevinc, qəlblərini riqqətə gətirən fəxarət hissi oxucunu onların yaşadıqları aləmə aparır. Elmarın şəhidlik zirvəsinə ucaldığı məqamda dostlarının onun nəşini fiziki və mənəvi əzab-əziyyətlə sıldırım qayaları keçərək qaldırması, yaşadıqları daxili sarsıntı baş vermiş hadisələrin ağırlığının oxucuya tam şəkildə çatdırılmasına səbəb olur:

"Ədalət:

– Həmişə Elmara deyirdim ki, "sən şəhid olma, səni döyüş meydanından çıxarmağa beş adam lazımdır". Çox cüssəlidir axı... Şəhadətin mübarək, Elmar.

Kərəm:

– Amma onları biçib tökdü. Bilirsən, necə döyüşürdü. Elə bil dağ idi. Üstlərinə gedirdi. Qaçırdılar. Hər əli ilə birini parçalayırdı. Bağıra-bağıra dərəaşağı atırdılar özlərini. Ayağım

üzülsə də, başım üstümdə idi. Elmardan qaçanları mən bircə-bircə nişan alıb məhv edirdim. Şahanə bir döyüş idi. Yəqin, qaçıb aradan çıxanı oldusa, gedib Elmarı bütün dünyaya zombi kimi tanıdacaq" [4, s.34].

Birinci və İkinci Qarabağ müharibələrində baş vermiş hadisələrin bədiiləşdiyi əsərlər müharibənin ağrı-acısını, şəhidlik zirvəsinə ucalan oğulların şücaətlərini, taleyinə qaçqınlıq və köçkünlük yazılmış uşaqların yaşantılarını, xiffətini əks etdirir.

Kitabda müəllif yenə balaca oxucusuna müraciətlə sözə başlayır: "*Gənc dost! Bu əsəri yazanda səni düşündüm... Düşündüm ki, yurdun gələcəyi sənin əllərindədir. Əsərdəki qəhrəmanların canı-qanı bahasına bütöv etdikləri Vətən sənə əmanətdir! Sən də bugünkü qəhrəmanları – Şuşa savaşçılarını yaxından tanımalısan...*" [4, s.8]

Müharibə bütün insanlıq üçün faciədir, onu gözü ilə görüb şahidi olan, hər atışmanın, hər raket zərbəsinin qorxu və təlaşını, düzəlməsi mümkünsüz acı nəticələrini, ağır itkilərini yaşayanlar üçün əbədi mənəvi zədə, yaddaşlara qazılmış psixoloji travmadır. Sevinc Nuruqızı "Zəfər nəğməsi – Şuşa" kitabındakı mətnləri şahidi olduğu, oxuduğu, izlədiyi əsasında təqdim edərkən onları bədiiləşdirməyin qeydinə qalmır. Çünki yaşananlar elə qorxulu nağıl kimi təsirli, ağrılıdır. Müəllif kiçik epizodlara bəzən şeirlər, bəzən şərhlər yazır və qeyd edir ki, məqsədi nağıl və əfsanədən fərqlənməyən şücaətləri tarixin yaddaşına yazmaqdır: *"Şəhadətə ucalanların mavi-çəhrayı işıqla dolu uçuşunu sizinlə birlikdə seyr etmək istəyirəm"* [4, s.226].

"Zəfər nəğməsi – Şuşa" kitabında ermənilərin uzun illərdir torpağımızda törətdikləri faciə və fəlakətlərdən bəhs edilən hekayələr vasitəsilə gənc oxucuda yaxın tarixlə bağlı bilgi və təsəvvürlər yenilənir. Unutmamaq üçün ayrı-ayrı şəhərlərin mənfur erməni işğalına məruz qalması, tapdaq altında olduğu illərdə qəsb edilməsi, tariximizə və mədəniyyətimizə vurulan zərbələr və s. haqqında faktlar yada salınır. Zəfərə nail olana kimi uzun və keşməkeşli yol qət edən xalqımızın başına gələnlərə rəğmən, qələbə əzmi ilə bütün çətinlikləri dəf edib azğın düşmənə qan uddurması, şəhadətə qədərki şərəfli yol seçənlərin şücaətləri təqdim olunur. *"Zəfər nəğməsi – Şuşa" əsəri həm də gələcək nəsillər üçün bu gün nəfəs qədər yaxın olan tariximiz, qələbə uğrundakı savaşımız haqqında salnamədir, – desək, yanılmarıq"* [2, s.23].

Əgər azyaşlılar üçün bədii əsər həyatla, sənət vasitəsilə tanışlıq mərhələsidirsə, yeniyetmə üçün bu mərhələ artıq geridə qalıb – onun istəyi daha çox prosesin özünü öyrənməkdir, analizdir. Təsadüfi deyil ki, yeniyetmələr üçün nəzərdə tutulan ədəbiyyat seqmentinin əsas vəzifəsi gənc oxucunun davamlı və məqsədyönlü sosial fərd olaraq yetişməsinə, cəmiyyətdəki ümumi norma və dəyərlərə, davranış modelinə uyğun formalaşmasına müəyyən qədər təsir edə bilməkdir. "*Uşaq ədəbiyyatı – uşaqların böyük olmaq üçün keçdiyi ədəbiyyat məşqidir... Uşaqların böyük həyata hazırlanmasını uşaq ədəbiyyatı olmadan təsəvvür etmək mümkün deyildir. Bu məqamda uşaq ədəbiyyatı övladlarını yaşdan-yaşa, addım-addım irəli aparmaq, düşündürmək, tərbiyə etmək vəzifələrini yerinə yetirən valideynlərin də işini həyata keçirir. Uşaq ədəbiyyatı uşaqlığın bütün mərhələlərinin bələdçisi və sükançısıdır*" [3, s.5].

**Nəticə / *Conclusion***

Hər bir insanın əsas keçid dövrü olan yeniyetməlik şüurda dərindən iz buraxan mənəvi dəyərlərin aşılanması, onların təkrar-təkrar translyasiya edilərək möhkəmlənməsi üçün ən doğru zamandır. Ədəbiyyatın vəzifəsi də bu xüsusiyyətlərin formalaşmasına rəvac verməkdir. Bu baxımdan "Zəfər nəğməsi – Şuşa" kitabı azyaşlı və yeniyetmələrdə təəssübkeşlik, əzmkarlıq, vətənpərvərlik kimi xüsusiyyətlər aşılayır və bunu edərkən xəyal məhsulu olan obrazlara deyil, bizdən biri olan real qəhrəmanların həyat və fəaliyyətinə əsaslanır.

Beləcə, kitabın qayəsi övladlarımıza Vətənin hər qarışını sevdirmək və onu qanı, canı bahasına qoruyanları, müdafiə edənləri tanıtmaq, unutmağa qoymamaqdır. Müəllif kitabın ön sözündə bəhs etdiyi superqəhrəmanların uydurma, xəyal deyil, gerçək olduğunu, onların bizim ailəmizdə, qonşuluğumuzda, kəndimizdə, bir sözlə, əhatəmizdə yaşadıqlarını bildirir.

## Ədəbiyyat / *References*


1. Akimova, E. "Melissa" – çəhrayı rəngli sevgi". "Ədəbiyyat qəzeti", 2021, 22 may.
2. Bağırlı, A. "Şuşa ilinin uşaq ədəbiyyatı". "Ədəbiyyat qəzeti" (Xüsusi buraxılış), 22 iyul, 2023.
3. Həbibbəyli, İ. Uşaq dünyasında ədəbiyyat və uşaq ədəbiyyatı. "Ədəbiyyat qəzeti". 2020, 5 iyun.
4. Nuruqızı, S. "Zəfər nəğməsi – Şuşa". – Bakı: TEAS Press Nəşriyyat evi, 2021. – 237 s.
5. Nuruqızı, S. Meşədə yeni il. "Azərbaycan" jurnalı, 2018, – №12.
6. Xəlil, Zahid, Əsgərli, Füzuli. Uşaq ədəbiyyatı. – Bakı: ADPU nəşriyyatı, 2007.


## Позиция творчества Севиндж Нуругызы в современной детской литературе


**Гюльнар Гамбарова**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: ms.gulnar_babayeva@mail.ru



**Резюме.** За последние тридцать лет Севиндж Нуругызы сумела привлечь внимание детей своими интересными работами. Её произведения всегда побеждали на конкурсах в зарубежных странах, и ей удалось достойно представить детскую литературу как внутри страны, так и за ее пределами. Севиндж Нуругызы, посвятившая свою жизнь развитию детской литературы и ее продвижению в правильном направлении, активно участвовала в литературном процессе в этой области, чутко относилась к каждому историческому событию в общественной и политической жизни страны. В частности, написанные ею материалы о трагических карабахских, шушинских событиях, то ли в последние тридцать лет – в период оккупации, то ли в годы победы, – снискали ей в нашей литературе образ современного писателя. В статье предметом анализа становятся произведения, написанные автором для детей в разные периоды.



**Ключевые слова:** Севиндж Нуругызы, ребенок, патриотизм, литература, современный